# Müstəqillik dövrü Azərbaycan dramaturgiyası yeni inkişaf mərhələsi kimi

**İlkiyyə Məmmədova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Xəzər Universiteti*
**E-mail:** ilkiyye@gmail.com

**Rəyçilər:** prof. B. Əhmədov,
dos.V. Əyyub

**Açar sözlər:** dramaturgiya, müstəqillik dövrü, teatr, yeni mərhələ
**Ключевые слова:** драматургия, эпоха независимости, театр, новый этап
**Key words:** dramaturgy, independence, theatre, a new period

Bütün zamanlarda dramaturgiyanın, teatrın qarşısında böyük bir missiya durur; bu missiyanın kökündə maarifçilik başlıca yer tutsa da, forma və məzmun cəhətdən zaman-zaman dəyişir, inkişaf edir və yeni funksiyalar qazanır. Bu funksiyalar dramaturgiyaya yeni nəfəs verir, onun məzmununu, konfliktini, personajlarını dəyişir. Almaniyada sosializm-realizm ədəbi cərəyanının banilərindən biri Bertold Brext yaşadığı dövrdə teatrın qarşısında duran problemləri təhlil edərkən belə bir nəticəyə gəlirdi: "Böyük maarifçilər Didro və Lessinqin əsasını qoyduqları inqilabi burjua estetikası teatra iki funksiya təyin edir; əyləncə və ibrətlilik.

Avropada teatrın inkişafına müəyyən xidmətlər göstərən maarifçilik dövrü əyləncə ilə ibrətamizlik arasında heç bir fərqi görmürdü. Əgər indi bizim dövrün teatrına baxsaq, görərik ki, dram və teatrın hər iki elementi getdikcə biri o birindən kəskin surətdə fərqlənir və müəyyən məqamlarda konfliktlər yaşayırlar" (1, 30). Əslində, Azərbaycan dramaturgiyası və teatrı da ilk addımlarını məhz ibrətamizlik, maarifçilik funksiyasını yerinə yetirməklə atmışdır. Fransız maarifçilərinin yolunu davam etdirən M.F.Axundzadənin dramaturgiyaya komediya janrı ilə başlaması və komediyalarında ibrətamiz hadisələri konfliktin əsasına qoyması da maarifçilik estetikasından irəli gəlirdi. Sonrakı mərhələlərdə də teatr nə qədər inkişaf etsə də, yeni dramaturqlar nəsli yetişsə də, dramaturgiyanın və teatrın bu əzəli funksiyası unudulmamışdır.

Azərbaycan dramaturgiyası müstəqillik dövründə yeni bir mərhələyə daxil olmuşdur. Bu mərhələ dramaturgiyanı yalnız janr və problematikada deyil, üslub, personajlar, forma baxımından da zənginləşdirir. Məlumdur ki, Azərbaycandakı siyasi-ictimai hadisələr fonunda 1988-ci ildən başlayaraq teatrlar öz çətin günlərini yaşamışdır. Buna səbəb ictimai-siyasi proseslərin sürətlə dəyişməsi və həyatın özünün bir səhnə meydanına çevrilməsi olmuşdur. Bütün bunlar dramaturgiyanın tənəzzül mərhələsini şərtləndirirdi.

Teatrların dövlət tərəfindən maliyyələşdirilməsinin aradan götürülməsi də bu tənəzzülü şərtləndirən amillərdən idi. Teatrların sponsorların ümidinə qalması klassiklərin də teatra yolunu bağlayırdı. Az qala müvazinətini itirmiş, istiqamətinin müəyyənləşməsində bir çaşqınlığa məruz qalmış Azərbaycan teatrında bu vəziyyət bir neçə il davam etdi. 1992-ci ildən başlayaraq Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı klassik və müasir Azərbaycan yazıçılarının, dünya dramaturqlarının əsərlərini tamaşaya qoymağa başladı. İ.Əfəndiyevin "Dəlilər və ağıllılar" (1992), "Hökmdar və qızı" (1996), B.Vahabzadənin "Özümüzü kəsən qılınc" (1998), "Cəzasız günah" (2000), "Dar ağacı" (2000),

M.Haqverdiyevin “Ah qadınlar, qadınlar” (1992), “Qısqanc ürəklər” (1993), K.Abdullanın “Min illərin işığı” (1995), “Hərdən mənə mələk də deyirlər” (2000), “Casus” (2001) və başqa çağdaş dramaturqların əsərləri səhnə həyatı gördü. Bununla yanaşı, teatrlar dünya və Azərbaycan klassiklərinin əsərlərini də tamaşaya hazırlamışlar. Lakin bu əsərlər janr, ideya və yeni meyillər baxımından bütünlüklə teatr mühitini təmin etmirdi. Buna görə də dramaturji sahədə yeni imzalar və yeni simaların gəlməsinə böyük ehtiyac yaranmışdı.

Əgər sosrealizm kontekstində Azərbaycan tamaşaçısı yalnız sovet dramaturqlarının əsərləri ilə qane olurdusa (nadir hallarda çağdaş xarici əsərlər səhnələşdirilirdi), yeni texnologiyanın inkişaf etdiyi indiki dövrdə mürəkkəb səhnə texnikasına meyil göstərir və hadisələrin dünyaya açılmasını istəyirdi. Dünya dramaturgiyasının tərcüməsi, yaxud onların əsərlərinin Azərbaycanda qoyulması həm dramaturgiyanın estetik qaynaqlarını zənginləşdirmiş olur, həm də yeni tamaşaçı zövqü formalaşdırırdı. Bu cəhətdən J.P.Sartr, J.Anuy, A.Miller, T.Uilyams və b. əsərlərinin nəşri və tamaşaya qoyulması həm yeni dramaturqların yaradıcılığına öz təsirini göstərir, həm də tamaşaçı zövqünün formalaşmasına səbəb olurdu.

Məlumdur ki, dramaturgiya mahiyyət etibarilə sinkretik sənətdir; onun inkişafı da, tənəzzülü də bir çox sahənin –teatrın, rejissorluğun, səhnə rəssamlığının, musiqinin, aktyorluğun və s. zəifləməsinə gətirib çıxarır. Bu mənada Azərbaycan dramaturgiyası və teatrında da müəyyən bir tənəzzül yaşanmışdır. 90-cı illərin əvvəllərində ölkədə və regionda olan ictimai-siyasi vəziyyət, sosial-iqtisadi çətinliklərlə əlaqədar həyat özü bir səhnə olmuş, tamaşaçıları ilə iştirakçıları bir olmuşdur. Müharibə gedən bir ölkədə teatrların, ədəbiyyatın inkişafını şərtləndirən amillər həmişə zəifləyir. 90-cı illər Azərbaycan teatr mühitində də belə olmuşdur. Bu illərdə bir müddət teatra gedən olmamışdır. Bu, təkcə teatr, dramaturgiya mühitinə aid olmayıb, ümumiyyətlə, ədəbiyyatın qarşılaşdığı çətinliklərlə əlaqədar idi. Başqa ədəbi əsərlərdən fərqli olaraq, teatra vəsaitin olmasının zəruriliyi onu digər janrlardan fərqləndirirdi. Yazılan əsərlərin səhnəyə qoyulması çətin olduğundan teatra gələnlər də azalırdı.

Bundan başqa, ölkənin iki aparıcı teatr məkanı – Akademik Milli Teatrı və Musiqili Komediya Teatrının uzun müddət təmirə bağlanması teatra ziyan vurduğu kimi, dramaturgiyanın inkişafını da ləngitmiş oldu. Bu illərdə bütövlükdə teatr və dramaturgiyamızın ümumi inkişafını dəyərləndirən ədəbiyyatşünas Vilayət Quliyev Azərbaycan yazıçılarının X qurultayında dramaturgiyadakı vəziyyət haqqında yazır: “Dram əsərlərinin oxunmaq üçün deyil, tamaşaya qoyulmaq üçün yazıldığını nəzərə alsaq, dramaturqların əslində özlərinin əsas tribunalarından məhrum olduğu aşkara çıxar. Elə bunun da nəticəsində bəzən hətta kzuslar da yaranmışdır, məsələn, milli dramaturqun əsəri ilk dəfə orijinal dilində deyil, tərcümədə tamaşaya qoyulmuşdur” (2, 145).

Bütün bu amillər çağdaş bədii düşüncənin tərkib hissəsi olan dramaturgiyanın müstəqillik dövründə yeni inkişaf yolu keçməsini şərtləndirmişdir. Bu inkişaf yolunu şərtləndirən əsas amil əsrin sonunda ictimai-siyasi sferada baş verən qlobal dəyişikliklər olmuşdur. Bu dəyişikliklər dramaturgiyanı yeni janr, struktur, mövzu və problematika baxımından zənginləşdirmişdir. Dramaturgiyada ənənəvi təmayül ilə birlikdə yenilikçi təmayül də ortaya çıxmış, yeni dramaturji mətnlər yarandığı kimi, həm də dramatik növə yeni qüvvələr gəlmişdir. Tənqidçi Əsəd Cahangir bu yeniləşməni belə ifadə edir: “Çünki son iyirmi ildə ədəbiyyat və eləcə də dramaturgiyada bir yandan güclü yeniləşmə gedir, yazıçılar daha səmimi və təbii yazmağa çalışır, sovet dövründə yasaqlanmış dünya ədəbiyyatı praktikası bədii düşüncəmizə daxil olur, hər cür tabu söz konusuna çevrilir, çoxsaylı kitablar yayınlanır,

fərqli dillərə və fərqli dillərdən çevirmələr yapılır, yeni ədəbi imzalar üzə çıxır... (3)

Bu yeniləşmə nəsr və poeziya ilə yanaşı dramaturgiyanı da əhatə edir. İlyas Əfəndiyev, Elçin, Firuz Mustafa, Əli Əmirli, Rəhman Əlizadə, Kamal Abdulla, Vaqif Səmədoğlu, Afaq Məsud, Elçin Hüseynbəyli, Aygün Həsənoğlu, Hüseynbala Mirələmov və başqa onlarla müəllifin bu mərhələdə yazıldığı dramaturji mətnləri çağdaş Azərbaycan dramaturgiyasının təşəkkül meyillərini araşdırmaq üçün zəngin material verir. Onların dramaturji mətnlərində çağdaş dramaturgiyanın mistik-psixoloji, fantastik, detektiv, komedik, məzhəkə, monodram və s. müxtəlif janrlar vardır. Eləcə də çağdaş dramaturgiyada mövzu-problematikanın sərhədləri genişlənmiş, yeni mövzular və müvafiq olaraq yeni bədii həll vasitələri öz əksini tapmışdır. Xüsusilə janr sinkretizmi müasir dövr dramaturgiyasının aparıcı istiqamətlərindən birinə çevrilmiş, həm məzmun, həm də formaca bir sıra yeniliklər öz əksini tapmışdır.

Dramaturgiyanın inkişafını şərtləndirən amillərdən biri də teatrın, aktyorluq sənətinin və dramaturgiyanın, teatr tənqidinin tandem şəklində fəaliyyət göstərməsidir.

Çağdaş teatrın səviyyəsini müəyyən etmək üçün tamaşaları, aktyorluq sənətini və dramaturji mətni yalnız lokal şəkildə eksklüziv olaraq təhlil etmək azdır, son dərəcə detallaşdırılmış və elmi şəkildə münasibət bildirmək lazım gəlir. Bu mənada çağdaş teatr tənqidi və onun tamaşalar, dramaturji mətnlərlə bağlı məqalələrinə də nəzər salmaq lazımdır.

Çağdaş dramaturgiyanı şərtləndirən amillərdən biri də sosrealizm dövründə ideologiyanın ruporuna çevrilən ideoloji yükdən qurtarmasıdır. Buradakı yeniləşmə problemini xüsusi qeyd etmək lazımdır. Təbii ki, hər dövrün öz dramaturgiyası olur. Bu mənada çağdaş dramaturgiya da istisna təşkil etmir. Əlbəttə, “yeni dramaturgiya” anlayışını konkret bir zamanla bağlamaq doğru olmazdı. Burada zamandan çox teatrın məzmunca yeniləşməsi nəzərdə tutulur.

Yeni mərhələdə dramaturgiyanın inkişafını şərtləndirən amillər olmaqla yanaşı, onun tənəzzülünü şərtləndirən faktorlar da olmuşdur. Bunun başlıca səbəblərindən biri kimi, dünyada və regionda gedən qlobal prosesləri göstərmək olar. Ən əsas məsələlərdən biri isə xalqın Qarabağ savaşına köklənməsi, faktiki müharibə şəraitində olması idi. Müharibənin getdiyi şəraitdə dramaturqun yaradıcılıq impulsunun nə dərəcədə olması, iqtisadi çətinliklərin ortaya çıxması tamamilə yeni bir situasiya yaratmış olur. Ən başlıca səbəblərdən biri isə televiziya, video və internet inqilabının teatra vurduğu zərbədir. Bu zaman canlı sənət amili və canlı izləmək bir qədər arxa plana keçir.

Dramaturgiyanın tənəzzülünün başqa bir səbəbi isə teatrdan asılı vəziyyətdə olması idi. Əgər teatrlar yoxdursa, yaxud zəifdirsə, o zaman istər-istəməz dramaturgiyanın da inkişafına təsir göstərmiş olur. Bunu nəzərdə tutan tənqidçi Əsəd Cahangir yazır: “Azərbaycan teatrı, özəlliklə də Milli Teatrın səhnəsinə çıxmaq, dramaturq lojasında əyləşmək isə Ə.Əmirlinin personajlarından birinin dediyi kimi, “qırxüzlü milli mentalitetimizdən” irəli gələn digər amillərlə ilgili bir az da qəlizləşir. Yüksək post və ya maddi imkan sahibi olmaq bizdə dramaturq olmağın az qala əsas şərtinə çevrilib. “Post” sözünü karyera anlamında işlətsək, bizdə də postdramatizmdir və deməli, güvənməyə səbəbimiz var” (4, 332).

Bu dövrdə, təəssüf ki, teatr, demək olar ki, öz ənənəsindən qopur; ictimai-siyasi hadisələrin aktuallığında teatrların repertuarı (bu repertuarın əsasını sovet dövründə yazılan əsərlər təşkil edirdi) öz əhəmiyyətini itirir. Teatra marağın azalması, yeni texnologiyaların (teletamaşa, teleseriallar) tətbiqi teatrla tamaşaçı arasında sədd çəkir. Tamaşaçının teatra gedib istədiyini ala bilməməsi üzündən teatrlar boşalır. Aktyorlar isə fərdi, yaxud qrup fəaliyyətlərinə üstünlük verirlər. Hibrid janrlar televiziyalarda kütlə ilə daha tez ünsiyyətə girir. Bütün bunlara rəğmən dramaturgiya mövzu, janr, struktur və üslub baxımından əvvəlki mərhələlərdən daha məhsuldar olması ilə fərqlənir. Əgər əvvəlki illərdə dramaturgiya janr

etibarilə dram, pyes, komediya ilə məhdudlaşırdısa, müstəqillik dövründə mövzu və janr etibarilə zənginləşir və çoxçeşidli olur.

Bu janrlar içərisində tarixi və ailə dramları ilə yanaşı, sosial, psixoloji və sənədli dram-seans pyesləri də daxil etmək olar. Komediya janrı baxımından zənginləşməkdə davam edib; kədərli komediya, ekssentrik komediya və s.

Azərbaycan dramaturgiyasının çağdaş mərhələsini şərtləndirən amillərdən biri də əsərlərin milli arealdan kənarda tamaşaya qoyulması, yeni tamaşaçı kütləsinə çatdırılmasıdır. Əgər sosrealizm dövründə milli dramaturgiya daha çox Sovet ərazisində səhnə həyatı görürdüsə, indi bu coğrafiya bir qədər genişlənmişdir. Elçin, K.Abdulla və F.Mustafa, M.İbrahimbəyov və b. əsərləri dünyanın müxtəlif səhnələrində tamaşaya qoyulmuşdur. Elçinin "Mənim sevimli dəlim" ("Dəlixana qaçqını") pyesi Türkiyə Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. Bu Türkiyə Dövlət Dram Teatrında tamaşaya qoyulan ilk Azərbaycan dramaturji əsəri idi. Tamaşa haqqında Türkiyə mətbuatı geniş resenziyalar yazaraq əsərin uğurunu qeyd etdi. Bundan sonra dramaturqun "Mənim ərim dəlidir" pyesi Türkiyənin müxtəlif teatrlarında səhnə həyatı yaşadı.

Dramaturqun "Ulduzlar altında qətl" pyesi isə 2006-cı ildə İstanbul Böyük Şəhər Bələdiyyə Teatrında, 2007-ci ildə isə İstanbulun Möhsün Ərtoğrul səhnəsində uğurlu səhnə həyatına qədəm qoymuşdur. Türkiyənin "Ufuk ötesi" həftəliyi dramaturq haqqında yazmışdır: "Türkiyədə və dünyada nəşr edilən roman, hekayə, esseləri və səhnə üçün yazdığı əsərləri ilə tanınan Elçin Azərbaycan dünyasını və insanını tanıdır" (5).

Elçinin əsərləri Avropa səhnəsində də göstərilmişdir. Onun "Mənim sevimli dəlim" pyesi Londonun "Tristan Bates" teatrında Azərbaycanın Böyük Britaniyadakı səfirliyi və Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə ingilis dilində oynanıldı. Tamaşanın quruluşçu-rejissoru Metyu Qoldun, bəstəkarı isə Mamed Ansaridir. Rolları Riçard Stirlinq, Oliver Madsley, Ralf Boqard, Daniel Robinson və b. ifa edirdilər. "Şekspir" əsəri də Londonda böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Məlumdur ki, dramaturgiyada dəlilik mövzusu zaman-zaman işlənilmişdir. Dramaturq Elçinin "Şekspir"ində isə dəlilik xəstəliyinin özündən deyil, daha çox onun psixoloji qatlarından söhbət açır və cəmiyyətə insanlıq naminə şeytanla Şekspirsayağı mübarizə zirvəsinə gəlib çatan bir ucalıqdan baxmağa çalışır.

"Şekspir" komediyasının dünya səhnəsində özünəməxsus yeri olduğunu nəzərdə tutan İftixar Piriyev yazır: "Şekspir" komediyası tez bir zamanda dünya teatr ictimaiyyətinin də diqqətini cəlb etdi. Moskva "Dərviş" Teatrı, Londonda fəaliyyət göstərən "Avanqarda" Teatrı, Krım-tatar Akademik Musiqili Dram Teatrı bu əsəri tamaşaya qoydular. 2012-ci ilin martın 6-da isə "Şekspir" əsəri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Petru Vutkereunun quruluşunda yeni səhnə həllini tapdı" (6, 35)

Ümumiyyətlə, çağdaş dramaturgiya yeni dövrdə fərqli bir inkişaf yolu keçir; istər mövzu və problematika, istərsə də janr və struktur baxımından yeni bir mərhələ təşkil edir. Zaman etibarilə təxminən otuz ili əhatə edən bu mərhələdə dramaturgiyanın inkişafında bir çox dramaturji meyillər və yaradıcılıq tendensiyası özünü göstərir. İlk dəfə olaraq, bu mərhələdə eyni zamanda ondan çox dramaturq dramaturji prosesdə iştirak edir və teatrı, aktyor və rejissor sənətini daha da zənginləşdirir.

**Məqalənin aktuallığı.** Müstəqillik dövrü Azərbaycan dramaturgiyasının araşdırılması çağdaş ədəbiyyatşünaslığın qarşısında duran əsas problemlərdən biridir. Ədəbi tənqid bu dövrdə yazılan əsərləri bir çox problemlər baxımından təhlil etsə də, bütövlükdə dramaturgiyanın inkişaf istiqamətlərinin fundamental araşdırılması ədəbiyyatşünaslığın

üzərinə düşür. Bu baxımdan mövzunun aktuallığı çağdaş dramaturgiyanın tədqiqini zəruri edir.

**Məqalənin elmi yeniliyi.** Problemin araşdırılmasının əhəmiyyəti ondan ibarətdir ki, dramaturji mühitdə olan və tamaşaya qoyulan əsərlər ilk dəfə olaraq elmi-nəzəri cəhətdən tədqiqata cəlb edilir və bir mərhələ təşkil etdiyi əsaslandırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə gənc tədqiqatçılar, doktorant və dissertantlar üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. Bertold B. Eksperimental teatr haqqında. "Ədəbiyyat qəzeti", 2016, 23 fevral.
2. Azərbaycan yazıçılarının X qurultayı. Bakı: Azərnəşr, 1999.
3. Əsəd C. Dionisin sağlığına. "525-ci qəzet", 2011, 28 may.
4. Əsəd C. Kim yatmış, kim oyaq. Bakı: Yazıçı, 2012.
5. Xanoğlan V. Elçin yaradıcılığı dünya meridianlarında. "Xalq qəzeti", 2013, 6 may.
6. Piriyev İ. Elçin teatrı dəyişən sənət dünyamızda // Qobustan, 2012, № 2.

**И. Мамедова**

## Азербайджанская драматургия эпохи независимости как новый этап развития
## Резюме

В статье исследуются путь развития азербайджанской драматургии эпохи независимости, деятельность видных ее представителей и характер. Отмечается, что в этот период, как и во все времена, драматургия выполнила свою просветительскую миссию, пройдя путь развития, ознаменовавший начало нового этапа. С приходом в драматургию новых имен изменилась не только ее проблематика, но и жанровая поэтика. Все это привнесло новые веяния в драматургию, видоизменив ее форму и содержание. На этом этапе, охватывающем 30-летний период, проявились значительные драматургические веяния и творческие тенденции.

**I. Mammadova**

## Azerbaijan dramaturgy of independence epoch as a new development period
## Summary

The development, representatives and character of Azerbaijan dramaturgy of independence period are analyzed in the article. It was noted that, like previous years the dramaturgy fulfilled its enlighten mission passing development way, which shoves beginning a new period. With the emergence of a new playwrights in dramaturgy, along its subject and problems, genre of poetry also changed. All these changes gave a new life to dramaturgy, its content and structure changed. Approximately 30 years, a number of dramaturgy and creative tendency developed in dramaturgy of this period.